## *AZƏRBAYCAN DİLİNİN TƏDRİSİ METODİKASI*

UOT 37.01.

***Humay Arif qızı Alıkişiyeva,***
*Azərbaycan Respublikası Təhsil İnstitutunun aparıcı mütəxəssisi*

# AZƏRBAYCAN DİLİ DƏRSLƏRİNDƏ KOMMUNİKATİVLİK YARADAN TAPŞIRIQLAR

***Хумай Ариф гызы Алыкишиева,***
*ведущий специалист*
*Института Образования Азербайджанской Республики*

# ЗАДАНИЯ, СПОСОБСТВУЮЩИЕ ВОЗНИКНОВЕНИЮ КОММУНИКАТИВНЫХ НАВЫКОВ НА УРОКАХ АЗЕРБАЙДЖАНСКОГО ЯЗЫКА

***Humai Arif Alykishiyeva,***
*leading specialist of the*
*Institute of Education of the Republic of Azerbaijan*

# COMMUNİCATİVE SKİLLS İN AZERBAİJANİ LANGUAGE LESSONS

**Xülasə:** Məqalədə Azərbaycan dili dərslərində kommunikativ mədəniyyətinin formalaşması üçün tapşırıqların mahiyyəti və əhəmiyyətindən bəhs edilir. Həmçinin, məqalədə müəllimin şagirdlərdə kommunikativ bacarıqların formalaşması, inkişaf etməsi və qarşıya qoyulmuş məqsədə çatmaq üçün tapşırıqlar üzərində işləməsinin, müxtəlif yanaşmaların vacibliyi əsaslandırılmışdır.

***Açar sözlər:*** *kommunikativ bacarıqlar, mədəniyyət, ünsiyyət,* müasir şagirdlər, *tapşırıqlar*

**Резюме:** В статье рассматривается сущность и значимость заданий, способствующих формированию коммуникативной культуры на уроках азербайджанского языка. В статье также обосновывается важность различных подходов учителя при разработке заданий для достижения целей по развитию и формированию коммуникативных умений учащихся.

***Ключевые слова:*** *коммуникативные умения, культура, общение, современные ученики, задания*

**Summary:** The article considers the importance of the communicative culture of the formation of the Azerbaijani language. In this article, the article also emphasizes the importance of the training of the tutor for training, developing and working on the whole family.

***Key words:*** *communicative skills, culture, communication, modern pupils, assignments*

Son illər cəmiyyətin sürətli inkişafı təhsil sistemimizə də təsirsiz ötüşmədi. Bir sıra fənlərin məzmunu köklü surətdə dəyişdi və fənn yeni yanaşmalarla ayaqlaşmalı oldu. Bu axına Azərbaycan dili fənni də aiddir. Əvvəllər Azərbaycan dili dərslərində iş daha çox yazı işləri, əzbərlənmiş dil, punktasiya qaydaları üzərində qurulurdusa bu gün artıq bu iş tamamilə yenilənib. Bu gün Azərbaycan dili dərslərində şagirdlərə təfəkkürün hər üç növü ilə düşünmək, təhlil etmək, məntiqi və düzgün danışıq, ünsiyyət qurmaq öyrədilir. Azərbaycan dili bir fənn kimi şagirdlərə təkcə linqvistik anlayış kimi deyil, həm də yazılı, və şifahi nitq vasitəsilə kommunikativ bacarıqlar aşılayır. Bütün bunlar böyük kommunikativ mədəniyyət anlayışının bir hissəsidir.

Kommunikativlik haqqında filosof Karl Yaspers yazırdı: “Kommunikativlik- insanların qarşılıqlı mədəni dəyərlər yoludur.” **(1,)** Yaspersə görə, insan fikirlərini digər bir insanla paylaşarkən özünü daha yaxşı anlamağa başlayır.

Azərbaycan dili təliminin məqsəd və vəzifələrinə uyğun olaraq, məzmun xətləri aşağıdakı kimi təyin edilmişdir: **(3)**

- Dinləyib-anlama
- Oxu
- Yazı
- Dil qaydaları

Diqqət yetirsək görərik ki, bu dörd məzmun xəttinin hər biri şagirdlərdə kommunikativ bacarıq və mədəniyyət formalaşdırmağa yönəlmişdir.

Bu gün müasir məktəbin əsas vəzifələrindən biri düşünən beyinli, yüksək mədəniyyətə sahib bir insan yetişdirməkdir. Gələcəyin bu insanları bu günün məktəblərindəki şagirdlərimizdir. Müasir şagirdlər artıq standart dərslərlə qane olmur. Daim axtarışda olan bu şagirdlərdə dərsə maraq yaratmaq bir qədər çətinləşmişdir. Bu işdə yük biz müəllimlərin üzərinə düşür. Biz dərsi həm maraqlı, onların tələb və ehtiyaclarına uyğun qurmalı, həm də savadlı şagirdlər yetişdirməliyik. Bunun üçün dərsliklərdəki tapşırıqlarla kifayətlənməyərək, qeyri-standart dərslərə də üstünlük verməliyik. Məhz qeyri-standart dərslər zamanı şagirdlərimizin qeyri-adi istedad və maraqlarını kəşf edə bilərik.

Azərbaycan dili dərsləri bu gün daha çox dialoq şəklində keçilməni tələb edir. Məhz dialoq zamanı şagirdlər bir-birini dinləyir, münasibət bildirir, tolerantlıq və mədəniyyət nümayiş etdirirlər.

Müasir Azərbaycan dili dərsləri kommunikativ mədəniyyətin formalaşmasında aparıcı qüvvədir. Tapşırıqların məzmunu şagirdlərə müxtəlif kommunikativ bacarıqlar aşılamalıdır. Bir qismi dinləmə mədəniyyəti, gözəl danışıq, digəri isə təfəkkürlü yazı, sual verməni və s. öyrədə bilər. Kommunikativ məşğələlər zamanı ünsiyyətdəki problemlər, baryerlər aradan götürülür. Azərbaycan dili dərslərinin dialoq şəklində qurulması standart fikirlərdən uzaqlaşmağa, yeni biliklərin əldə olunmasına, şagirdlərin yaradıcı düşünmələrinə, ünsiyyət qurmalarına gətirib çıxarır. Bu tip dərslər daha çox öyrədici, tərbiyəedici və inkişaf etdirici olur. Seçilən tapşırıqlar Blum taksonomiyasına əsaslanmalıdır. Məsələn, şagird bildiyi mövzu haqqında söhbətə başlayır. Anlayış ətrafında söhbət davam etdirilir. Dialoqun sonrakı mərhələsində təhlil aparılır və müzakirələr sintez edilir. Dialoqun sonunda mütləq ortaya əldə olunan yeni nəticə gəlməlidir.

Bu gün şagirdlərimiz öz fikirləri bildirməyə, onu əsaslandırmağa çətinlik çəkirlər. Bunun müxtəlif səbəbləri vardır. İlk ağlagələn səbəb auditoriya qarşısında utancaqlıqdır. Bir qədər dərinə getdikdə şagirdin özünü ifadə etməkdə, fikrini sübut etməkdə, ünsiyyət qurmaqda böyük çətinliklərinin olduğunu görə bilərik. Bunun üçün dərs zamanı yerinə yetirilən tapşırıqlar bu problemin həllinə yönəlməlidir. Müəllimlər müxtəlif vasitələrlə kommunikativ mədəniyyətli insanlar yetişdirməyə ünvanlanmış tapşırıqlardan istifadəni artırmalıdırlar. Kommunikativ tapşırıqları müəllim şagirdlərin yaş və bilik səviyyəsinə uyğun seçməli və oyunun sonunda mütləq şagirdlərlə birgə əldə olunan nəticəni müzakirə etməlidir.

Kommunikativ bacarıqları formalaşdırmaq üçün dərslərdə aşağıdakı işlər aparıla bilər:

1**. Müşahidəyə əsaslanan tapşırıqlar.** Tapşırıqda müxtəlif mövzulu və həyatın fərqli anlarını əks etdirən şəkil və fotolardan istifadə oluna bilər.

**Şifahi dialoq**. Şagirdlər şəkildəki personajları canlandıraraq havaya, məkan və zamana uyğun dialoq qururlar. Bu tapşırıq şagirdlərdən bir-birinin fikrini diqqətlə dinləməyi, dialoqdakı məntiqi əlaqəni tutmağı, fikri davam etdirməyi tələb edir.

Həmin şəkildəki hadisəni müəllim yazılı şəkildə hər şagirdin şəxsi mühakiməsinə buraxaraq esse şəklində də tapşıra bilər. Bu zaman bu tapşırıq-artıq monoloji nitqə əsaslanacaq.

**2.** Əməli yazılar birbaşa kommunikativ mədəniyyətə əsaslanır. Şagirdlərə məktəbdə keçiriləcək hər hansı bir tədbirlə bağlı elan nümunəsi hazırlamaq tapşırılır. Məlumat vahid üslubda olmalı, maraqlı və dəqiq ifadə olunmalıdır. Məqsəd yazıda orfoqrafik, punktasiya qaydalarına və elanın yazılma tələblərinə əməl etməklə işin yerinə yetirilməsinə nail olmaqdır.

Kommunikativ tapşırıqlar-nəzəri biliklərlə yanaşı, mədəniyyət və nitq bacarıqları yaradan təfəkkür çalışmalarıdır. V.L. Skalkinin bölgüsünə görə bu tapşırıqlar aşağıdakı kimi qruplaşdırılır:**(1)**

1. Reponsiv
2. Situativ
3. Diskussiyalı

4. Kompozisiyalı
5. Tapşırıq-oyun şəklində

**I.** Reponsiv çalışmalar:

Sual-cavab şəklində olan bu çalışmalar şagirdlərdə düşünmə aktivliyi yaradır. Nitq fəaliyyəti motivə olunaraq müstəqillik və produktivlik inkişaf edir.

Reponsiv tapşırıqlar iki şəxsin dialoqu zamanı şəxsi fikirlərin ifadəsi zamanı istifadə olunur. Şagird hadisəyə öz münasibətini mühakimə şəklində "mənə belə gəlir ki..." "mən hesab edirəm ki..." "düşünürəm ki...." sözləri ilə başlayır.

**II. Situativ**

Situativ tapşırıqlar-dərs zamanı müəllim tərəfindən həyat hadisələri üzərində yaradılan tapşırıqlardır. Situativ tapşırığın quruluşu problemli vəziyyətin qoyuluşundan və təsvirindən asılıdır.

Nümunə üçün h*amıya tanış olan "Qaraca qız" əsərindən bir hissə üzərində dayanaq. (Kinodan bir fraqment də nümayiş etdirilə bilər) Qaraca qızın bəyin evindəki qonaqlıqda başına gələnlərə şagirdlər tək və ya qrup, yazılı və ya şifahi şəkildə münasibət bildirə bilərlər*. Müəllim şagirdlərin bu tapşırığı yaradıcı şəkildə davam etdirmələrini istəyərsə "Bu əsərin sonunu siz necə bitirərdiniz? "Nə üçün?" və s. bu kimi sualları hər bir şagirdə yönəltməlidir. Bu zaman şagird yazılı formada fikrini əsaslandırmağı bacarığı nümayiş etdirməlidir.

Digər situasiyalı oyun tapşırığa nəzər salaq. Şagirdlər qruplara bölünərək onlara müxtəlif peşə adamlarını iş prosesində canlandırmaq tapşırılır. Bu səhnə satıcıları, sürücüləri, həkim və ya jurnalistləri əhatə edə bilər. Məqsəd şagirdlərdə nitq etiketlərindən düzgün istifadə, verilən suallara nəzakətlə cavab vermək, cavabı konkret və səliqəli şəklə salmaq, nitq vərdişlərinə yiyələnmək bacarığı formalaşdırmaqdır.

**III. Reproduktiv**

**Reproduktiv** çalışmalar-dinlənilmiş və ya oxunmuş materialın əsas ideyasının çatdırılması üzərində qurulur. Buna yazı işi kimi ifadələrin yazılmasını göstərə bilərik.

Kommunikativ mədəniyyətə sahib insan lakonik danışmalı, fikrini qarşısındakına birbaşa ötürməlidir. Fikri uzunçuluq edərək, dolayı yollarla ifadə etmək qarşındakını yora bilər.

Reproduktiv çalışmaların istifadəsi ilkin qazanılan biliyi daha sonra bacarığa çevirməyə imkan verir.

**IV. Diskussiya**

Diskussiyalı tapşırıqlara dərs zamanı aparılan müzakirə və şərhlər daxildir. Müzakirə zamanı şagirdlərin çoxu iştirak edir, bir məsələyə müxtəlif aspektlərdən baxış və o məsələnin həlli yolları müzakirə olunur. Bu çalışmalar zamanı qarşıya çıxan ən böyük çətinlik şagirdlərdə dinləmə mədəniyyəti yaratmaqdır.

**V. Kompozisiyalı tapşırıqlar**

Bu tapşırıqlara verilən mövzu ətrafında şifahi çıxışlar, improvizə, dramatikləşdirmə aiddir.

1. Müzakirə edin: Dilimizdə bu ifadə niyə və zaman işlənir? Mənası?

*Axillesin dabanı (insanın ən zəif nöqtəsi) haqqında bildiklərinizi şifahi şəkildə bölüşün.*

*Gözdən düşmək, ağzına su alıb oturma, ürəyi ağzına gəlmək, gözü su içməmək kimi frazeoloji birləşmələri jest və mimikalar vasitəsilə qarşınızdakına çatdırın.*

2. Qruplara yaradıcı tapşırıq kimi hər hansı mətnin, bir nağıl və ya əfsanənin sonunu improvizə etmək tapşırıla bilər.

**VI. Oyun-tapşırıqlar**

Oyun tapşırıqların əsas məqsədi düzgün ünsiyyətin qurulması, qarşılıqlı ünsiyyət zamanı məlumat mübadiləsinin düzgün aparılmasıdır.

**Dairə oyunu**

**Məqsəd:** Şagirdlərdə ünsiyyət prosesinə qoşulmaq bacarığı formalaşdırmaqdır. Bu tapşırıq-oyun şagirdlərdə nitq və təsəvvürü, fantaziyanı və sürətli formada tərəfdaşına və hadisəyə köklənməyi formalaşdırır.

Şagirdlər dairəvi əyləşir. Müəllim : "Bu gün istirahət günüdür və ...." şagirdlər bu fikri yaradıcı şəkildə davam etdirirlər.

Bütün kommunikativ tapşırıqlar şagirdlərdə danışma, dinləmə, yazı və oxu bacarıqları yaratmağa xidmət edir. Bu tip tapşırıqlar dildən ünsiyyət vasitəsi kimi istifadəni aşılayır.

Kommunikativ tapşırıqlar - insanlarla əlaqə qurmaq və inamlı ünsiyyət yaratmaq üçün sadə və effektli üsuldur. Bu oyunlar insanlarda müxtəlif hadisələr zamanı ünsiyyət və qarşılıqlı əməkdaşlıq bacarığı formalaşdırır. Bu məşğələlər kommunikativ əlaqə zamanı uğur əldə etmək üçün lazım olan bütün bacarıqları inkişaf etdirir.

**Problemin aktuallığı.** Kommunikativ bacarıqların formalaşdırılmasında oyun-tapşırıqların rolu olduqca önəmlidir.

**Problemin elmi yeniliyi.** Şagirdlər arasında dialoqların qurulması, qarşılıqlı əməkdaşlıq şəklində öyrənmələri təlimin keyfiyyətini yüksəldən və kommunikativ mədəniyyətə aparan yoldur.

**Problemin praktik əhəmiyyəti.** Kommunikativ mədəniyyətin formalaşdırılması şagird şəxsiyyətinin formalaşmasına, bilik və bacarıqla yiyələnməsinə, mənəvi və ünsiyyət baxımdan zənginləşməsinə güclü təsir edir.

**Ədəbiyyat:**

1. https://moluch.ru/archive/30/3462/
2. https://solncesvet.ru/ коммуникативные-упражнения-на-урока/

**E-mail:** h85.a@mail.ru
**Rəyçi:** *ped.ü.fəls.dok., dos.* B. İbadova
**Redaksiyaya daxil olub:** 11.12.2018